


*Noyabrın 3-də Azərbaycan Mətbuat Şurasında (MŞ) "Olimpiya dünyası" qəzetinin 20 ilik yubileyinə həsr olunmuş "Narkomaniyaya qarşı mübarizədə media və idmanın rolu" mövzusunda tədbir keçirildi.*

*Tədbirdə Mətbuat Şurasının sədri Əflatun Amaşov, Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti, Azərbaycan Ədalətli Oyunlar Komissiyasının (AzƏOK) sədri Xəzər İsayev, "Olimpiya dünyası" qəzetinin baş redaktoru Murad Fərzəliyev, Olimpiya çempionu, DİN İdman Klubunun rəisi, polis polkovniki Zemfira Meftaxetdinova, Dünya Narkotiklə Mübarizə Aparan İdmançılar Federasiyasının Azərbaycan nümayəndəliyinin rəhbəri Cavid Allahverdiyev, Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsinin nümayəndəsi Nadir Məmmədov, dünya və Avropa çempionları, habelə idman ictimaiyyətinin digər nümayəndələri iştirak edirdilər.*

*Tədbirin əvvəlində 44 günlük Vətən Müharibəsinin şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.*




# "Olimpiya dünyası" qəzetinin 20 illik yubileyinə həsr olunmuş tədbir keçirildi

Tədbiri giriş sözü ilə açan Mətbuat Şurasının sədri Əflatun Amaşov qonaqları salamlayaraq, tədbirin mövzusu ilə bağlı məlumat verdi. Dünya Narkotiklə Mübarizə Aparan İdmançılar Federasiyasının Azərbaycan nümayəndəliyinin fəaliyyətindən danışan sədr dedi: "Təşkilata Azərbaycanda 50-dən artıq federasiya və 300-dən artıq tanınmış idmançı üzv seçilib. Ayrı-ayrı federasiyalarla çoxsaylı tədbirlər təşkil olunub. Hesab edirik ki, gələcəkdə təşkilat daha böyük işlərin öhdəsindən gələcək, nəticədə gənc nəslin narkomaniyadan uzaq olmasına öz töhfəsini verəcək".



Mətbuat Şurasının sədri Əflatun Amaşov çıxış zamanı "Olimpiya dünyası" qəzetinin 20 illiyi barəsində öz fikirlərini diqqətə çatdırdı. ""Olimpiya dünyası" qəzeti yarandığı vaxtda Azərbaycanda idman və Olimpiya Hərəkatında yeni canlanma baş verirdi. Qısa zaman ərzində qəzet böyük nüfuz qazanmağa başladı. Geniş oxucu auditoriyası toplayan qəzet idman nəşrləri arasında liderliyi ələ aldı. Qəzet Bakı Dövlət Universitetinin jurnalistika fakültəsi ilə sıx əlaqələr yaratdı. Fakültədə təhsil alan və məzun olan tələbələri öz sıralarına qataraq, onlarla əməkdaşlıq etdi. Hazırda Azərbaycanda idman jurnalistikasında öz sözünü deyən jurnalistlərin əksəriyyəti vaxtilə "Olimpiya dünyası"nın əməkdaşı olublar. Buna görə də mən qəzetin rəhbərliyinə öz minnətdarlığımı bildirirəm. Onlara gələcək fəaliyyətlərində uğurlar diləyirəm", - deyə Əflatun Amaşov vurğuladı.

Sonra çıxış üçün söz Milli Olimpiya Komitəsinin vitse-prezidenti Xəzər İsayevə verildi. MOK-un rəsmisi tədbirin mahiyyətindən danışaraq, bir sıra maraqlı məsələlərə toxundu.

"Bu cür tədbirlərin keçirilməsi Azərbaycan gəncliyi üçün ən vacib məsələlərdən biridir. Mən öz adımdan Dünya Narkotiklə Mübarizə Aparan İdmançılar Federasiyasının Azərbaycan nümayəndəliyinin rəhbəri Cavid Allahverdiyevə minnətdarlığımı bildirirəm ki, belə bir çətin məsuliyyətli işi öz üzərinə götürüb. Qurum rəhbəri ilə görüşlərimiz olub. Gələcəkdə Milli Olimpiya Komitəsi və Ədalətli Oyunlar Komissiyası ilə birlikdə bir sıra tədbirlərin keçirilməsini nəzərdə tutmuşuq. Narkomaniya elə bir bəladır ki, daim cəmiyyət onun aradan qaldırılması üçün bütün qüvvə və bacarığını səfərbər etməlidir. İdmanın bu təşkilatla bir araya gəlməsinin səbəblərindən biri də odur ki, gənc nəsil düzgün yolda addımlasın, bu və ya digər zərərli vərdişlərdən uzaq olaraq sağlam bir gələcəyə sahib olsunlar. Bu işdə böyük təbliğat aparılmalıdır. Hesab edirəm ki, belə olduğu təqdirdə biz öz məqsədimizə çata biləcəyik", - deyə Xəzər İsayev bildirdi.

Milli Olimpiya Komitəsinin vitse-prezidenti çıxışında "Olimpiya dünyası" qəzetinin 20 illik yubileyi barəsində də fikirlərini bildirərək dedi ki, Milli Olimpiya Komitəsi olaraq yaxın günlərdə "Olimpiya dünyası" qəzetinin 20 illik yubileyini qeyd edəcəyik. Qəzetin baş redaktoru Murad Fərzəliyev və əməkdaşlar bu illər ərzində böyük səy və zəhmət bahasına belə bir qəzeti ərsəyə gətirib. Azərbaycanda idman və Olimpiya Hərəkatının təbliğində "Olimpiya dünyası" qəzetinin müstəsna rolu var. Buna görə də rəhbərliyə və yaradıcı heyətə öz təşəkkürümü bildirirəm.

Daha sonra "Olimpiya dünyası" qəzetinin baş redaktoru Murad Fərzəliyevə diplom təqdim edildi.

Milli Olimpiya Komitəsinin aparıcı məsləhətçisi, "Olimpiya dünyası" qəzetinin baş redaktoru Murad Fərzəliyev çıxış edərək, qəzetin 20 il ərzində keçdiyi yoldan və əldən olunan uğurlardan danışdı: "Milli Olimpiya Komitəsinin rəsmi mətbuat orqanı olan "Olimpiya dünyası" qəzetinin ilk sayı 2001-ci il noyabrın 27-də işıq üzü görüb. İlk gündən öz səhifələrində ölkə idmanı, Olimpiya Hərəkatı və Olimpiya ideallarının təbliğinə geniş




yer verən "Olimpiya dünyası" idman aləmində, xüsusilə də Azərbaycan idmanında cərəyan edən bütün yenilikləri oxuculara çatdırmağı özünün başlıca vəzifəsi hesab edir. İdman mətbuatı aiiəsində özünəməxsus mövqeyi olan "Olimpiya dünyası" qəzeti bu illər ərzində sevilən nəşrlərdən birinə çevrilib. Ötən müddət ərzində qəzet öz səhifələrində dünyada və ölkədə baş verən mühüm idman hadisələrini, yeniliklərini müntəzəm və operativ işıqlandırmaqla artıq 20 ildir ki, atletlərimizin çıxış etdikləri yarışlar, onların əldə etdikləri uğurlar barəsində operativ xəbərlərlə oxucuların görüşünə gəlir.

"Olimpiya dünyası" qəzetinin səhifələrində Olimpiya Oyunları, Yeniyetmələrin Yay Olimpiya Oyunları, Avropa Yeniyetmələrinin Olimpiya Festivalları, I Avropa Oyunları, II Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları və bir çox mötəbər beynəlxalq yarışlardan birbaşa və operativ məlumatlar verilib. Olimpiya ideallarının, Olimpiya Hərəkatının Azərbaycanda təbliğinə xidmət edən "Olimpiya dünyası" qəzeti həm ölkə, həm də dünya idmanının aynasına çevrilib.

"Olimpiya dünyası"nın fəaliyyəti dövlət tərəfindən, təşkilat və qurumlar tərəfindən də yüksək qiymətləndirilib. İki əməkdaşımız Azərbaycan Respublikasının Əməkdar jurnalisti fəxri adına və "Tərəqqi" medalına layiq görülüb. Qəzet Milli Olimpiya Komitəsinin Ədalətli Oyunlar Komissiyasının "Ədalətli idman təbliğatçısı" nominasiyasının qalibi olub. Belə ki, Azərbaycan İdman Jurnalistləri Assosiasiyası (AİJA) tərəfindən qəzet dəfələrlə "İlin ən yaxşı idman nəşri" nominasiyasına layiq görülüb. Qəzetin əməkdaşları da müxtəlif illərdə "İlin idman jurnalisti" nominasiyasında birinci olublar. Beynəlxalq mətbuatın da diqqət mərkəzində olan "Olimpiya dünyası" İspaniyada "Nüfuz və keyfiyyətə görə-Aktualidad-XXI" adlı beynəlxalq mükafata layiq görülüb. İdmanın təbliği sahəsindəki fəaliyyətinə görə Beynəlxalq Gimnastika Federasiyasının xüsusi diplomu ilə təltif edilib. "Olimpiya dünyası" əvvələr həftədə iki dəfə rəngli formatda 6000 tirajla çap edilirdi. Hazırda qəzet həftədə bir dəfə 4100 tirajla çap edilir və geniş oxucu kütləsinə malikdir. "Olimpiya dünyası" qəzeti hazırda həftəlik qəzet kimi fəaliyyət göstərsə də, 2016-cı ilin oktyabr ayından həm də onlayn formatda da gündəlik olaraq oxucuların görüşünə gəlir.

Daha sonra Murad Fərzəliyev narkomaniyanın bu gün cəmiyyətimizin çox böyük problemlərindən biri olduğunu dedi: "Düşünürəm ki, idmançılar narkomaniya qarşı mübarizənin önündə olmalıdırlar. Bugünki tədbirdə Avropa, dünya çempionları, eləcə də Olimpiya oyunlarının qızıl mükafatçısı Zemfira Meftaxetdinova iştirak edir. Bu idmançılar ölkə prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi, cəmiyyətdə nümunədirlər. Bu nümunədən istifadə edərək, cəmiyyətimizdə böyük bir bəlaya çevrilən narkomaniya ilə mübarizənin önündə getməliyik. Çünki narkotikdən istifadə hardasa, həm də an məsələsidir. Burada iradə tələb olunur. İnsan hansısa məqamda iradəsinin zəifliyindən həmin faciəyə düçar olur. İdmançılar da bu anı, iradəni yarışlarda öz üzərlərində çox sınayırlar. Hər bir idmançı yarışa çıxarkən son dərəcə həyəcanlı olur. Bu və ya digər səbəblərdən stresə düşə bilir. Psixoloji sarsıntı keçirir. Lakin həmin idmançı yarışın hər hansı bir məqamında, anında özünü toparlayıb, qalib gələ bilir. Narkomaniya ilə mübarizədə idmançıların öndə getməsini əsas səbəblərindən biri də onların



daha iradəli olmalarıdı. Onlar davranış və tərbiyələri, cəmiyyətdəki mövqeləri ilə nümunə olmaqla xüsusilə gəncləri bizim cəmiyyətin bəlasına çevrilən narkomaniyadan qismən də olsa xilas edə bilərlər. Hüquq-mühafizə orqanları narkomaniya ilə qətiyyətlə mübarizə aparır. Mediada tez-tez narkomaniya ilə məşğul olanların hüquq mühafizə orqanları tərəfindən məsuliyyətə cəlb olunması ilə bağlı xəbərlərə rast gəlirik. Çalşımalıyıq ki, bu xəbərləri verməklə yanaşı, gənclərimizi bu bəlaya aparan yolların aradan qaldırılması üçün mediada təhlili yazılar da dərc edək. Bu mövzuda tanınmış mütəxəssislərin fikirləri də böyük əhəmiyyət daşıyır", - deyə Murad Fərzəliyev qeyd etdi.

*(ardı 5-ci səhifədə)*

# OLİMPİYA 20 DÜNYASI



# "Olimpiya dünyası" qəzetinin 20 illik yubileyinə həsr olunmuş tədbir keçirildi

(əvvəli 4-cü səhifədə)

Baş redaktor çıxışı zamanı idmanın sağlamlıq faktoru kimi sağlam cəmiyyətin formalaşmasında bilavasitə rolu oynadığını diqqətə çatdırdı: "Cəmiyyət sağlam olmalıdır ki, millət də sağlam olsun. Narkomaniya daha çox mənəviyyatla bağlıdır.Cəmiyyət mənəvi cəhətdən sağlamdırsa, fiziki sağlamlıq faktorlarına da xüsusi diqqət ayıracaq. Əgər bir insan fiziki cəhətdən sağlam, mənəviyyatca zəifdirsə, onun fiziki sağlamlığı cəmiyyət üçün heç bir əhəmiyyət kəsb etmir. Başqalarına tərbiyə və nəsihət vermək üçün insan əvvəlcə özü nümunə olmalıdır. İnsanın özü verdiyi öyüdlərə əməl etməlidir. İdmançılar cəmiyyətin aparıcı qüvvələridir. İdmanın həyat tərzimizə çevrilməsi üçün məhəllələrdə çoxsaylı idman qurğuları olmalıdır.Narkomaniyaya qarşı mübarizə hər birimizin işidir. Biz öz növbəmizdə "Olimpiya dünyası" qəzetində "İdmançılar narkomaniyaya qarşı" rubrikası altında maraqlı yazıları oxucularımıza təqdim edirik. Bu işi bundan sonra da davam etdirəcəyik. Hər birimizin gördüyü işlər cəmiyyətimizin, xalqımızın sağlamlığına xidmət etməlidir".



Daha sonra söz Dünya Narkotiklə Mübarizə Aparan İdmançılar Federasiyasının Azərbaycan nümayəndəliyinin rəhbəri Cavid Allahverdiyevə verildi. Nümayəndəliyin rəhbəri yeni yaranan təşkilat barədə danışaraq, gələcək planlar haqda məlumat verdi.

"Dünya Narkotiklə Mübarizə Aparan İdmançılar Federasiyası 2011-ci ildə Qaya Müzəffər İlıcak tərəfindən yaranıb. İyun ayında bu təşkilatın Azərbaycan nümayəndəliyi yaradıldı və mən bu nümayəndəliyin rəhbəri seçildim.

Qeyd edim ki, mən uzun illərdir həm də "Sportsman" jurnalının ictimai əlaqələr üzrə menecer vəzifəsində çalışıram. Mənim işim həmişə idman ictimaiyyəti ilə media arasında körpü yaratmaq olub. Təşkilatın Azərbaycan nümayəndəliyinin rəhbəri seçildikdən sonra qarşıma məqsəd qoydum ki, mən bu günə qədər gördüyüm işləri bundan sonra daha əhatəli şəkildə görməyə çalışacağam.

Nümayəndəliyin rəhbəri seçildikdən sonra gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov, nazirliyin idman şöbəsinin müdiri Fərid Mansurov, Milli Olimpiya Komitəsinin vitse-prezidenti, Azərbaycan Ədalətli Oyunlar Komissiyasının sədri Xəzər İsayevlə görüşüb, onların xeyir-dualarını aldım. Çalışacağıq ki, öz əməli işlərimizlə, bizə olan etimadı doğruldaq.

Biz bu gün əsas işimizi yeniyetmələrlə qururuq. Amma təəssüf ki, narkomaniya elə bir bəladır ki, yaş həddi tanımır.



Biz bu gün ölkəmizdə kifayət qədər tanınan və uğurları ilə dünyanı fəth edən Olimpiya, dünya, Avropa çempionları ilə məktəbliləri bir araya gətirərək birgə tədbirlər təşkil edirik. Azərbaycan idmanının məşhur simaları olan belə idmançılarla görüşlər yeniyetmələr üçün çox müsbət təsir edir. Belə ki, həmin çempionlarımız idman karyeralarından, əldə etdiyi uğurlardan danışaraq uşaqları idmana, sağlam həyat tərzinə yönəldirlər. Bir idmançımız Olimpiya Oyunlarında və böyük yarışlarda uğur qazanırsa, o cəmiyyət üçün örnək hesab olunur. Elə bugünki tədbirimizdə də çox hörmətli Olimpiya, dünya və Avropa çempionlarımız iştirak edirlər. Bu idmançılarımız Azərbaycan Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə müxtəlif fəxri adlarla təltif olunublar. Mən hər zaman uşaq və gənclərə belə idmançıları örnək göstərərək onlara narkomaniyadan uzaq olmalarını, Olimpiya Hərəkatını, sağlam həyat tərzini seçmələrini aşılayıram. İdmanla məşğul olanların hər biri dünya və Avropa çempionu olmaya bilər, amma onlar ən azından cəmiyyətdə sağlam bir vətəndaş kimi formalaşacaqlar.

Bir məsələni də qeyd edim ki, bizim tədbirlər planımız nəzərdə tutulub. Bu plandan biri də məhəllə ağsaqqalları ilə görüşlərin keçirilməsidir. Əgər biz işimizi düzgün istiqamətdə qura bilsək, gənclərimizi narkomaniyadan uzaq tuta və onları sağlam vətəndaş kimi yetişdirə biləcəyik".

Tədbirdə çıxış edən Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsinin nümayəndəsi Nadir Məmmədov narkomaniyanın son dövrlərin ən böyük problemlərindən birinə çevrildiyini vurğuladı.

"Bildiyiniz kimi narkomaniya problemi Azərbaycandan da yan keçməyib. Azərbaycanda hazırda rəsmi qeydiyatda 32 mindən artıq narkoman var. Amma bu rəqəm heç də reallığı əks etdirmir. Reallıqda bu rəqəm dəfələrlə artıqdır. Təəssüf hissi ilə qeyd etmək istərdim ki, qeydiyyatda olan narkomanların 20 faizindən çoxu gənclərimizdir. Bu da çox mənfi tendensiyadır ki, artıq narkotiklərdən gənclərimiz, hətta yeniyetmələrimiz istifadə etməyə başlayır. Xanımlarımızın da narkotiklərdən istifadə etməsi milli genofondumuza böyük bir zərbədir. Narkotiklərdən istifadə eyni zamanda şəxsiyyətin mənəviyyatını yoxa çıxaran bir faktordur. Daxili İşlər Nazirliyi olaraq narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəmiz bir an belə səngimir. Təkcə cari ilin 9 ayı ərzində Daxili İşlər Nazirliyi tərəfindən narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı 6647 cinayət halı aşkar olunub. Qanunsuz dövriyədən 3 tondan artıq müxtəlif növ narkotik vasitələr çıxarılıb ki, onların da 50 faizindən çoxu məhz son dövrlər gənclərimiz arasında daha çox geniş yayılmış və güclü təsirə malik olan sintetik narkotiklərdir ki, onlardan istifadə çox pis fəsadlara səbəb olur. Lakin Daxili İşlər Nazirliyinin mübarizəsi təkcə bununla bitmir. Biz son dövrlər narkotiklərə qarşı sosial media menecmentindən də istifadə edirik. Gənclərimizin ən çox istifadə etdiyi sosial şəbəkələrdə Baş Narkotiklərlə Mübarizə İdarəsinin hesabları yaradılıb. Həmin hesablarda nəinki keçirilmiş əməliyyat axtarış tədbirlərinin nəticələri, eyni zamanda müxtəlif videoçarxlar, təqdimatlar yayımlayaraq narkotiklərin acı fəsadlarını gənclərə göstərməyə çalışırıq. Sosial şəbəkə hesablarına vətəndaşların narkomaniya ilə bağlı çoxlu sayda şikayətləri də olur. Məhz bunun sayəsində tərəfimizdən bir çox uğurlu əməliyyatlar həyata keçirilir. Bizim fəaliyyətimiz bununla bitməməlidir. Bütün dövlət qurumları, hökümət və qeyri-hökümət təşkilatları bu fəaliyyətə cəlb olunmalıdır. Xüsusən də idmançılarımız gənclərə nümunə olmalıdırlar ki, onlar bu zərərli vərdişlərdən uzaq olsunlar. Düşünürəm ki, cəmiyyətimiz bu problemə qarşı birləşsə bu bəlaya qalib gəlmək olar", - deyə DİN nümayəndəsi qeyd etdi.

Olimpiya çempionu, DİN İdman Klubunun rəisi, polis polkovniki Zemfira Meftaxetdinova isə çıxışında yeniyetmələri zərəli vərdişlərdən qorumağın ən başlıca məqsədlərdən biri olduğunu bildirdi: "Narkotiklərə qarşı mübarizədə maarifləndirici tədbirlərdə idmançıların rolu və onların nümunə kimi göstərilməsi gözəl addımdır. Təbii ki, hər bir idmançı öz uğurları ilə neçə-neçə yeniyetmənin idman bölmələrinə yazılmasına vasitəçi olur. Sözsüz ki, həmin uşaqlar onlara bənzəmək üçün idman zallarına üz tuturlar. Gənclərimiz istəyirlər ki, Namiq Abdullayev, Fərid Mansurov, Elnur Məmmədli, Elxan Məmmədov kimi olsunlar. Düşünürəm ki, belə maarifləndirici tədbirlərin həyata keçirilməsi gənclərimizin pis vərdişlərə qurşanmasının və narkomaniyaya meyl etməsinin qarşısını almaq yolunda müsbət nəticələr verəcək. Hər birimizin borcudur ki, uşaq və gənclərimizi bu ciddi bəladan qoruyaq. Mən də bir idmançı və polis əməkdaşı kimi, uşaqlarımızın idmanla məşğul olmasına və onların pis vərdişlərdən uzaq, sağlam həyat tərzi keçirməsinə səy göstərirəm. Bir sözlə, həm idmançılar, həm də Daxili İşlər Nazirliyinin əməkdaşları bu məsələyə ciddi yanaşırlar", - deyə Zemfira Meftaxetdinova diqqətə çatdırdı.

Daha sonra tədbirdə çıxış edən, "Bakı xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev, cüdo üzrə Əməkdar məşqçi, Azərbaycan Cüdo Federasiyasının nizam-intizam komitəsinin sədri Ruzbeh Vəliyev, cüdo üzrə dünya çempionu Elxan Məmmədov, Azərbaycan Kikboksinq Federasiyasının vitse-prezidenti, kikboksinq üzrə dünya çempionu Ehram Məcidov, "Sportsman" jurnalının baş redaktoru Rəşad Qəmərşahoğlu, "Olimpiya dünyası" qəzetinin baş redaktorunun müavini Aslan Şirəliyev, uşu-sanda üzrə dünya çempionu Emil Hacıyev, "Məhsul" UGİM-in direktoru Niyazi Məmmədov, "Azerisport.com" saytının rəhbəri Vüqar Zeynalov, Azərbaycan Ədalətli Oyunlar Komissiyasının məsul katibi Aysel Sultanova, Dünya Narkotiklə Mübarizə Aparan İdmançılar Federasiyasının Azərbaycan Nümayəndəliyinin katibi Gülnarə Məlikova və digər nümayəndələr "Olimpiya dünyası" qəzetinin 20 illik yubileyini təbrik edərək, narkomaniya ilə mübarizədə idmanın və Olimpiya Hərəkatının rolundan danışdılar.




Tədbirin sonunda xatirə şəkli çəkdirildi.